

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 6 (21.158)

10 yanvar 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda Məhəmməd Peyğəmbərin mövludu günü qeyd edilmişdir



İslam aləmində müqəddəs sayılan günlərdən biri də hicri təqvimi ilə Rəbbiul-əvvəl ayının 12-17-nə təsadüf edən mövlud gecəsidir. Mövlud gecəsi İslam dininin banisi, onun təşəkkül tapmasında və bütün dünyaya yayılmasında böyük xidmətləri olan, insanları mənəvi saflığa və yüksək əxlaqi dəyərlərə səsləyən Məhəmməd Peyğəmbərin doğum günüdür.

Yanvarın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Cümə məscidinə gəlmiş, həzrəti Məhəmməd Peyğəmbərin mövlud günü münasibətilə keçirilən tədbirdə iştirak etmişdir.

Çoxəsrlik tolerantlıq ənənələrinə malik olan Azərbaycanda dini-mənəvi dəyərlər tarixən müqəddəs hesab olunmuş, xalqımız humanizm və bəşəri ideyaların daşıyıcısı olan islami dəyərləri daim uca tutmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq Azərbaycanda formalaşan dövlət-din münasibətləri və dini dəyərlərə sadiqlik nümunə gücündədir. Naxçıvan Muxtar Respublikasında da dini-mənəvi dəyərlərin qorunub yaşadılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, yeni məscid binaları tikilir, dindarlar üçün lazımi şərait yaradılır. Hər il muxtar respublikada dini mərasimlərin, xüsusilə Məhəmməd Peyğəmbərin mövludu gününün geniş qeyd olunması da islami dəyərlərə hörmətin daha bir ifadəsidir.

Tədbirdə "Qurani-Kərim"dən ayələr oxunmuş, xalqımıza əmin-amanlıq, ölkəmizə inkişaf və tərəqqi arzulanmışdır.

Muxtar respublikanın rayonlarında da Məhəmməd Peyğəmbərin mövludu günü münasibətilə tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublikada özəl bölmənin inkişafı üçün əlverişli biznes və investisiya mühiti yaradılıb

***Naxçıvan Muxtar Respublikasında nəzərəçarpan iqtisadi yüksəliş, infrastrukturun müasir dövrün tələbləri səviyyəsində yenidən qurulması, yeni iş yerlərinin yaradılması, əhəmiyyətli iqtisadi, sosial layihələrin həyata keçirilməsi qədim diyarın uğurlarını daha da artırır. Bu gün reallaşdırılan mühüm layihələr nəticəsində muxtar respublikada makroiqtisadi sabitlik qorunub saxlanılır, iqtisadiyyatın şaxələnməsi uğurla təmin olunur, özəl bölmənin inkişafı üçün daha əlverişli biznes və investisiya mühiti formalaşdırılır.***

Dövlət başçısının "Ölkə iqtisadiyyatının gələcək inkişafı sahibkarlığın inkişafından bilavasitə asılıdır" prinsipinə uyğun olaraq, Naxçıvanda sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilib. Buna görə də muxtar respublikada özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafına xüsusi diqqət göstərilir.

Təkcə bu faktı qeyd edək ki, 2014-cü il ərzində Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondundan 18 layihənin maliyyələşdirilməsinə, ümumilikdə, 6 milyon 30 min manat vəsait sərf edilib. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyindən aldığımız məlumata görə, həmin vəsaitin 5 milyon 415 min manatı müxtəlif sənaye məhsulu yönümlü 11 layihənin maliyyələşdirilməsinə yönəldilib. 615 min manatı isə kənd təsərrüfatı məhsulları istehsalı yönümlü 7 layihənin maliyyələşdirilməsinə sərf olunub.

Bu məqamda xatırladaq ki, 2014-cü il ölkəmizdə "Sənaye ili" elan olunmuşdu. Bu, keyfiyyətcə yeni mərhələdə Azərbaycanın inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlməsi istiqamətində aparılan məqsədyönlü fəaliyyətin məntiqi davamıdır. Bu məsələ Naxçıvan Muxtar Respublikasında da diqqətdə saxlanılıb və əvvəlki illərdə olduğu kimi, 2014-cü ildə də sənaye sektoru dövlət qayğısı nəticəsində öz inkişafını davam etdirib. Muxtar respublikanın tarixinə həm də "Muxtariyyət ili" kimi yazılan 2014-cü ildə müxtəlif sənaye məhsulu yönümlü 11 layihənin Sahibkarlığa Kömək Fondu tərəfindən maliyyələşdirilməsi də dediklərimizi təsdiq edir.

2014-cü ilə nəzər yetirdikdə tikinti sektoru, kənd təsərrüfatı, ərzaqla yanaşı, digər sektorların inkişafı istiqamətində də əhəmiyyətli addımların atıldığını görmək mümkündür. Belə ki, ötən il ərzində laminat örtüklü iş masası lövhəsi, melamin lövhə və PVC örtüklü parlaq lövhə, plastik qapı-pəncərə, köynək, uşaq bezi, konserv taraları istehsalı, ətin konservləşdirilməsi, meyvəqurutma, qarışıq yem, bərk pendir, südün emalı və xama, qazlı-şirəli içkilər, kompot, unlu-qənnadı məmulatlar, lavaş istehsalı sahələri, heyvandarlıq, quşçuluq, balıqçılıq təsərrüfatları, istixana kompleksləri və xidmət olmaqla, 40 sahənin yaradılması başa çatdırılıb.

Muxtar respublikada digər istehsal sahələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Silikon yorğan-döşək və yataq bazası, qızıl-gümüş zinət əşyaları, elektrik açarları, alçıpan örtüklər, gips, əhəng, ət qovurması, unlu-qənnadı məmulatlar, bərk pendir istehsalı, toxumçuluq, quşçuluq, kompleks arıçılıq təsərrüfatı, istixana kompleksləri və xidmət olmaqla, 19 sahənin yaradılması istiqamətində işlər davam etdirilir. Yaradılmış istehsal və xidmət sahələrində 432 yeni iş yeri açılıb.

Bütün bunlar belə deməyə əsas verir ki, muxtar respublikada mövcud əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə əhalinin məşğulluğunu artırmaq, yoxsulluğun səviyyəsini azaltmaq, infrastrukturu yeniləşdirmək, əlverişli investisiya şəraiti, müasir müəssisələr, yeni iş yerləri yaratmaq istiqamətində sistemli tədbirlər ötən il də uğurla həyata keçirilib.

## 2014-cü il ərzində dövlət satınalmaları sahəsində fəaliyyət şəffaflıq şəraitində keçmişdir

*2014-cü il ərzində muxtar respublikanın müəssisə və təşkilatları tərəfindən dövlət vəsaiti hesabına malların (işlərin, xidmətlərin) satın alınması zamanı qanunvericiliyin tələblərinin gözlənilməsi istiqamətində ardıcıl tədbirlər görülmüş, işdə şəffaflıq prinsipi qorunmuş, müsabiqələrin ədalətli rəqabət şəraitində keçirilməsinə nəzarət gücləndirilmişdir.*

Muxtar respublikada sosial-iqtisadi sahədə davamlı inkişafın təmin olunması Ümumi Daxili Məhsulun həcminin də artmasına səbəb olmuşdur. Həyata keçirilən səmərəli iqtisadi siyasətin nəticəsidir ki, özəl sektorun Ümumi Daxili Məhsuldakı payı ildən-ilə artır. Muxtar respublikada sahibkarlığa göstərilən diqqət və qayğı dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə iddiaçılar arasında yerli məhsul istehsalçılarının daha fəal iştirakını təmin etmişdir. Belə ki, satın alınan ərzaq, bərk və yumşaq inventarlar, eləcə də digər məhsulların böyük qismi yerli istehsalçıların payına düşmüş, aparılan tikinti və təmir-bərpa işlərinin əksər hissəsi yerli şirkətlər tərəfindən icra olunmuşdur.

2014-cü il ərzində muxtar respublikada keçirilmiş 129 satınalma müsabiqəsi nəticəsində 1 milyon 576 min 587 manat dövlət vəsaitinə qənaət olunmuşdur.

## Xarici ticarət əməliyyatlarının həcmi genişlənir

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının davamlı xarakter alması, qəbul edilmiş müvafiq dövlət proqramlarının uğurlu icrası iqtisadiyyatın çoxşaxəli inkişafına zəmin yaratmış, makroiqtisadi dinamikanın qorunub saxlanılmasına səbəb olmuşdur. Maddi istehsalın xüsusi çəkisinin ilbeil yüksəlməsi, son illərdə muxtar respublikada məqsədli investisiya qoyuluşu, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması yerli məhsulların istehsal həcminin artmasına da səbəb olmuş, nəticədə, 2014-cü ildə Ümumi Daxili Məhsulun həcmi 2013-cü illə müqayisədə 1,3 faiz artaraq 2 milyard 388 milyon manatdan çox olmuşdur. 2014-cü ildə muxtar respublika üzrə Ümumi Daxili Məhsulun həcmində özəl bölmənin xüsusi çəkisi 87 faizə çatmışdır.

Əldə olunmuş müsbət nəticələr muxtar respublikanın xarici ticarət əməliyyatlarının həcmini də artırmış, 2014-cü ildə bu əməliyyatların həcmi 515 milyon 194 min ABŞ dolları təşkil etmişdir. Ticarət əməliyyatlarının 408 milyon 640 mini ixracın, 106 milyon 554 mini isə idxalın payına düşür. Artıq bir neçə ildir ki, davam edən ixracın idxalı üstələmə tendensiyası 2014-cü ildə də qorunmuş, 302 milyon 86 min ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.

## Muxtar respublikanın yol infrastrukturu yenidən qurulur

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətindən aldığımız məlumata görə, 2014-cü ildə muxtar respublikada 73 kilometr uzunluğunda asfalt yollar salınıb, 5 körpü tikilərək istifadəyə verilib, il ərzində yollarda genişmiqyaslı yenidənqurma və təmir işləri aparılıb.

Məlumatda o da bildirilir ki, şirkətin kollektivi 1473 kilometr yola xidmət edir. Həmin yolların 274 kilometri dövlət və respublika əhəmiyyətli, 1199 kilometri isə yerli əhəmiyyətli yollardır. Kollektiv qış günlərində də ən ucqar yollarda belə, hərəkətin intensivliyinin təmin olunması üçün lazımi tədbirlər görüb. Hazırda 7 yaşayış



məntəqəsini birləşdirən Şəkərabad-Babək-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu yenidən qurulur.

Xatırladaq ki, 2013-cü ildə muxtar respublikada 164 kilometr uzunluğunda yol salınmış və ya əsaslı təmir olunaraq istismara verilmiş, 21 körpü tikilmiş, 12 körpü isə təmir olunmuşdu. Prezident İlham Əliyevin 2013-cü il 5 mart tarixli Sərəncamı ilə Babək rayonunun 13 yaşayış məntəqəsini əhatə edən 25,6 kilometr uzunluğunda Hacıvar-Vayxır-Sirab yolunun tikintisinə 6,3 milyon manat vəsait ayrılmış, həmin vəsait hesabına yolun tikintisi başa çatdırılmışdı.

## Dövlət proqramı əkinəyararlı torpaqlardan səmərəli istifadəyə stimul olub

Son illər muxtar respublikamızda kənd təsərrüfatının müxtəlif sahələrinin inkişaf etdirilməsi, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün əkinəyararlı torpaqların səmərəli istifadəsi ciddi nəzarətdə saxlanılıb, bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən dövlət proqramları qəbul edilib. Belə proqramlardan biri də "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"dır. Adıçəkilən proqram meyvəçiliyin və tərəvəzçiliyin inkişafında böyük nailiyyətlər qazanılmasına stimul olub. Tərəvəzçilikdə zəngin təcrübə qazanan muxtar respublikanın torpaq mülkiyyətçiləri yaradılan şəraitdən səmərəli istifadə edərək ötən il əkin sahələrini bir qədər də genişləndirməklə 6125 hektara çatdırıblar. Onlar müxtəlif dövlət yardımlarından, kreditlərdən istifadə edərək sahələrdən 66 min 731 ton məhsul toplayıblar. Bu isə daxili bazarda yerli istehsalın çəkisini xeyli yüksəldib, idxaldan asılılığı minimum həddə endirib.

Əhalinin ilin bütün fəsillərində tərəvəz məhsulları ilə təchizatı məqsədilə bəhs olunan dövrdə tərəvəzçiliklə məşğul olanlar üçün daha bir dövlət qayğısı kimi istixana komplekslərinin yaradılması da davam etdirilərək il ərzində 6 yeni istixana kompleksi fəaliyyətə başlayıb.

**Xəbərlər şöbəsi**

# Yüksək təhsil və tərbiyə intibah amilidir



***Muxtariyyət tariximizin son 20 ilinin övladları öz təhsili, intellekt səviyyəsi, dünyagörüşü ilə fərqlənirlərsə, bu, inkişafımızın, intibahımızın göstəricisidir. Böyük ədib Maksim Qorki yazırdı: "Həyat belədir: istərsən gül, istərsən ağla, amma insan olduğunu yadında saxla!"***

### *Evlə məktəb arasında bir küçə vardı...*

Amma bir vaxt vardı ki, – keçid dövründə – az qala, hamımız bunu unutmuşduq. O küçəyə atalar, analar övlad dalınca yox, çörək dalınca çıxırdılar. Səhərin alatoranında bir parça çörək üçün mağazaların qarşısında küçə boyu növbə gözləyən insanların övladları da elə məktəbə getmək, dərs oxumaq əvəzinə, böyükləri kimi günlərinin çoxunu o küçədəcə keçirirdilər. Hamının bircə təsəllisi vardı: "Elnən gələn dərd toy-bayramdı". Belə bir zamanda – maddi tələbatlarımızın mənəviyyatımıza hakim kəsildiyi dövrdə imdadımıza yetişən ulu öndər Heydər Əliyev yurdumuza gəlişi ilə ürəklərə inam, gözlərə işıq, süfrələrə çörək bəxş elədi. Onun gəlişi o zamana təsadüf edirdi ki, həm vətəndaş, həm ziyalı, həm də bir valideyn kimi yaşadığımız o çətin günlərin ab-havası şüurumuzu, düşüncəmizi də sanki keyləşdirmişdi.

Ailədə, məişətdə, iş yerimizdə bizi "qoynuna" alan çeşid-çeşid problemlər içərisində kimliyimizi unutmuşduq, elə bil. Necə deyərlər, hər kəs yalnız onun üçün mübarizə edirdi ki, maddi tələbatını cüzi şəkildə ödəməklə həm də məişət problemlərini az-maz həll edə bilsin. Mənəvi dünyamızın param-parça olduğunu, övladlarımızın (gələcəyimizin) həmin dünyada unudulmuş varlığını da bəzən görməzdən gəlirdik. Elə bil ki, arzular da, istəklər də, xarakterlər də onda bir məcraya yönəlmişdi: birtəhər yaşamaq. Hamı bu istəyin köləsinə çevrilmişdi. Özünü oda-közə atan böyüklər kiçiklərin itirdiklərini düşünmürdülər. Amma bunu düşünənlər – dövlətimizin, millətimizin, Vətənimizin sabahı naminə ömrünü qurban verənlərsə gecəli-gündüzlü bu əzablı yolun çıxışını tapmağa çalışırdılar.

**Haşiyə:** Uşaq təkcə bir evin deyil, bütün el-obanın, dövlətin və xalqın ən böyük sərvətidir. Ulularımız isə deyiblər ki, oğulsuz, uşaqsız yurdun sabahı qara olur. El-oba içində ağır bir qarğışı da hər birimiz eşitmişik: "Balalarından çəkəsən". Amma bir də dilimizdə bir-birinə oxşayan iki söz var: bala və bəla. Məlumdur ki, həyatda, hər şeydə olduğu kimi, övladların da tərbiyəsində pis və yaxşı qütblər olub. Pis övlad öncə valideynin, böyüdükcə bir nəslin, sonra isə cəmiyyətin bəlasına çevrilir. Yaxşı isə həmişə başucalığı gətirir. Bunlar keçid dövründə unudulan həqiqətlər idi. Bəlkə də, bu, ona görə belə idi ki, başı maddi tələbatların ödənilməsinə qarışan valideynlər övladlarının daha çox küçədə vaxt keçirməsinə əhəmiyyət belə vermirdilər.

Bu gündən sabaha ümidi qalmayan insanlar elə yaşadıqları an içərisindəcə yox olduqlarını heç ağıllarına belə gətirmirdilər. Mütəfəkkirlərdən biri deyib ki, dağılmış binaları, viran qalmış şəhərləri, çökmüş iqtisadiyyatı bərpa etmək üçün illər bəs edər, amma məhv olmuş arzuları, itirilmiş mənəviyyatı və puç olmuş gəncliyi geri qaytarmaq üçün nəsillər dəyişməlidir. Bu mənada deyə bilərik ki, Azərbaycan adlı evimizin divarlarından gündə bir kərpic düşdüyü o zamanlarda üstümüzə ayaq açan qara qanadlı mələk kimi gözəgörünməz faciələrin qarşısını almaq üçün ulu öndər əsl xilaskar oldu. Sərhədləri mənfur ermənilər tərəfindən pozulan muxtar respublika əhalisində dövlət siyasətinə inam yaratmağa çalışan ulu öndər uzaqgörənliyi ilə qısa zamanda maddi və mənəvi problemlər içərisində sarsılan insanlara hər cür dəstək verdi. Baxmayaraq ki, o dövrdə – müstəqilliyimizin ilk illərində regionumuza da daxili və xarici düşmənlərin həyata keçirmək istədikləri planlar hazırlanırdı.

Ulu öndər öz uzaqgörənliyi ilə nüfuzundan, şəxsi münasibətlərindən istifadə edərək o çətin günlərdə əhalini maddi problemlərin məngənəsindən qurtarmağa nail oldu. Günün özünəməxsus çətinliklərini hiss edən insanlara dözüm, mətanət aşılayan ulu öndər, bununla bərabər, hər bir sahəni diqqət mərkəzində saxlayır, uşaqların, yeniyetmə və gənclərin də keçid dövrünün qurbanı olmaması üçün yollar axtarırdı. Bugünkü gəncliyin sahib olduğu imkanların yaranmasının əsası elə həmin dövrdə ulu öndər tərəfindən minbir çətinliklə qoyulmuşdu. Məlum hadisələrdən sonra ulu öndərin siyasi hakimiyyətə qayıdışı ilə Naxçıvanda əsası qoyulan həmin siyasətin bütün Azərbaycanda əks-sədası duyuldu. Muxtar respublikamızda da 1995-ci ildən sonra bu düşünülmüş siyasət məqsədyönlü şəkildə davam etdirildiyindən regionumuz bərpa dövrünü uğurla başa vuraraq inkişaf dövrünə qədəm qoymuşdur. Quruculuq siyasətinin əsas istiqamətini məktəb, elm-təhsil müəssisələrinin tikintisi və onların maddi-texniki bazasının gücləndirilməsi ideyası təşkil edirdi. Məqsəd məktəblərdə tədrisin keyfiyyətini yüksəltmək və təlimi ön plana çəkmək idi. Uşaqların, gənclərin, yeniyetmələrin asudə vaxtının səmərəli təşkili məqsədilə yerlərdə idmanın kütləviliyinə nail olunması üçün zəruri tədbirlərin reallaşdırılması da onların aşıb-daşan potensialını düzgün məcraya yönəltmək məqsədinə xidmət edirdi. Bir sözlə, gənclərin təşkilatlanması işi bir çox islahatların həyata keçirilməsi sayəsində reallaşdırıldı.

### *Bərpa dövrü*

Anasından ayrı düşmüş balanı xatırladan muxtar respublikamızda o dövrdə islahatlarla yanaşı, varislik ənənələri də bərpa olunmağa başlayırdı. Amma dağıdıcı müxalifət cüzi bir boşluqdan istifadə edərək baş qaldırmağa çalışırdı. O müxalifət ki, arxası, köməyi də evdən, məktəbdən daha çox küçədə vaxt keçirən yeniyetmə və gənclər idi. Çünki hələ dünyanın ağını qarasından yetərincə ayırmaq imkanına malik olmayan övladlarımızı onların meyil göstərdikləri mühit tərbiyə edirdi. Məktəbdə müəllimlərin, evdə valideynlərin diqqətsizliyindən, laqeydliyindən bəhrələnərək "xoşbəxt günlər" keçirən uşaqlarımız bu boşluqdan istifadə edib evlə məktəb arasındakı küçədə daha çox vaxt keçirməyə həvəsli idilər. Ona görə də onları istənilən istiqamətə yönəltmək istəyən qüvvələr o qədər də çətinlik çəkmirdilər. Bəlkə, elə ona görə də, həmin dövrdə xalqın adından danışanların küçələrə çıxardıqları "kütlə", əsasən, məktəbli uşaqlardan, yeniyetmə və gənclərdən ibarət olurdu. Sərhədlərimizin pozulduğu o günlərdə ağıllara, ürəklərə hakim kəsilmiş qorxu hissi isə imkan vermirdi ki, itirdiklərimizi saf-çürük edək. Yalnız maddi tələbatımızı, məişət qayğılarımızı qarşılamaq üçün gecəmizi gündüzümüzə qatırdıq. Amma sınıq-salxaq şagird partalarının arxasından durub evə gələn məktəblinin də, qazı, suyu, işığı olmayan evdən çıxıb məktəbə üz tutan şagirdin də can atdığı bir məkanın olduğu heç birimizi narahat etmirdi. Bu, evlə məktəb arasındakı küçə idi. Bəzən övladların tələbindən, istəyindən can qurtarmaq istəyən valideynlər özləri belə "Get küçədə uşaqlarla oyna, yetərincə dərdimiz var, sən də bizə problem yaratma", – deyə övladlarını elə onlar kimi nəzarətsiz qalan tay-tuşlarının öhdəsinə buraxırdılar.

Bu, o dövr idi ki, yalan vədlərdən doymuş insanlar doğrunu harada axtaracaqları haqqında düşünmür və nə edəcəklərini o qədər də götür-qoy etmirdilər. Bu tendensiya müstəqilliyimizin ilk illərində yüksələn xətlə müşahidə olunsa da, sonrakı illərdə bu prosesin qarşısı kəskin şəkildə alındı. Çünki muxtar respublikamızda getdikcə ictimai-siyasi sabitliyin qorunması üçün ciddi addımlar atılır, lazımi işlər görülürdü. Bununla yanaşı, quruculuq siyasəti məqsədyönlü şəkildə davam etdirilirdi. Əhalinin qarşılaşdığı bütün problemlərin həlli istiqamətində ciddi addımlar atılırdı. Nəticə isə arzu olunduğu kimi, həyatımızın ahəngini müsbətə doğru dəyişirdi.

1994-2014-cü illər arasındakı zaman məsafəsini ilbəil təhlil etsək, onda yaşadığımız ağlı-qaralı günlərin yazıldığı illərin təqvimində hansı siyasi proseslərin getdiyini, hansı quruculuq siyasətinin arzularımızı reallaşdırdığını və onların həyatımızda yaratdığı dəyişikliklərin nədən ibarət olduğunu çox aydın şəkildə görərik. İndi inkişafdan, tərəqqidən danışarkən ilk cümləmizə günümüzün reallığını təsvir etməklə başlayırıq. Bəlkə də, fərqinə varmadan həvəslə sadalayırıq ki, muxtar respublikamızda son 20 ildə yüzlərlə məktəb tikilib, səhiyyə ocaqları istifadəyə verilib, məktəbdənkənar tərbiyə müəssisələri fəaliyyətə başlayıb, yollar salınıb, abadlıq yaradılıb, yaşıllıq sahələri genişləndirilib. Sadalamaqla bitib-tükənməyən bu işlərin məqsədyönlü şəkildə həyata keçirilməsinin bizim maddi təminatımızdan başqa, həm də övladlarımızın sağlam, gümrah və tərbiyəli böyüməsindəki rolunu, bəlkə də, düşünmürük. Ancaq, məncə, bu qədər işlərin görülməsi nəslimizin, ailəmizin və dövlətimizin davamçıları olan övladlarımızın mənən zənginləşməsinə, bir şəxsiyyət kimi düzgün formalaşmasına və gələcəyin yüksəksəviyyəli ixtisaslı kadrları olaraq yetişməsi məqsədinə xidmət edir. Ali məqsədlərə hesablanmış, uzaqgörənliklə reallaşdırılmış bu siyasətə – Heydər Əliyev ideyalarına muxtar respublika Ali Məclisinin Sədri Vasif Talıbovun dönməz sədaqəti bölgəmizin bugünkü intibahına yol açdı.

### *Aparıcı qüvvə gənclikdir*

Bugünkü dövlət quruculuğunda, idarəetmədə öndə gedən gəncliyin intellekt səviyyəsinin artmasında, yüksək dünyagörüşünün formalaşmasında, elmin sirlərini öyrənməyə marağının güclənməsində muxtar respublikamızda son 20 ildə həyata keçirilən inkişaf konsepsiyasının böyük rolu olub. Nəzarətsiz qalmış uşaqların, yeniyetmə və gənclərin təşkilatlanmasında qəbul olunmuş qanunlar, həyata keçirilən islahatlar orta məktəblərin yenidən qurulması, nizam-intizamın bərpası, hər kəsə vəzifə borcunun məsuliyyətinin aşılanması böyük rol oynadı. Bununla yanaşı, insanların əməyinə verilən qiymət, onların cəmiyyətə tanıdılması, iş və məişət şəraitinin ən yüksək həddə çatdırılması bu istiqamətdə uğurların qazanılmasına səbəb oldu. Ali Məclisin Sədri Vasif Talıbovun bir fikrini burada xatırlamaq yerinə düşər: "Yaxşı iş tələb etməzdən əvvəl, yaxşı şərait yaratmaq lazımdır". Bunun üçün ən ucqar dağ kəndlərindən başlayaraq ən böyük şəhərlərimizə qədər yenidənqurma siyasətilə gözəlləşən yaşayış məskənlərimizdə arzu olunan hər bir şərait yaradılıb. Kükü, Şada, Ağbulaq, Keçili, Külüs kimi ucqar dağ və sərhəd kəndlərindəki orta məktəb binalarında yaradılan rahatlıqla yanaşı, məktəb kitabxanalarını zənginləşdirən yeni nəşr olunan nəfis kitablar şagirdlərə dövlət tərəfindən hədiyyə olunub. Həmçinin latın qrafikası ilə yeni nəşr olunmuş minlərlə kitabın kənd kitabxanalarına hədiyyə olunması da yeniyetmə və gənclərin, ümumilikdə isə əhalinin asudə vaxtlarını səmərəli keçirməsi məqsədinə xidmət edir. Qeyd etmək yerinə düşər ki, bu gün Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin kitabxanasında 11956, rayon mərkəzləşdirilmiş kitabxana sisteminin kitab fondunda 15508, rayon uşaq kitabxanasında 13602 kitab var.

Yaşından, təhsilindən, həyat təcrübəsindən və yaşadığı zamandan asılı olmayaraq, hər kəs öz övladını yaxşı görmək istəyir. Yaxud, elə bir ata-ana tapılmaz ki, övladını pislər cərgəsində görmək istəsin. Onda sual olunur, bəs bu pis övlad üçün kim məsuliyyət daşıyır? Əlbəttə, ilk növbədə, valideyn. Heç birimiz unutmamalıyıq ki, övladımızın tərbiyəsi ən mühüm vəzifəmizdir. Valideyn-məktəb-müəllim üçlüyü bir məqsədə xidmət etməlidir: sabahkı cəmiyyətin əsl vətəndaşlarını yetişdirmək. Bu vəzifəni yerinə yetirmək üçün muxtar respublikamızda valideynə, müəllimə, məktəbə və şagirdə son 20 ildə ən yüksək səviyyədə yaşamaq, işləmək, çalışmaq şəraiti yaradılıb.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş yeni həyat quruculuğu xəttinin məqsədyönlü şəkildə həyata keçirildiyi muxtar respublikada ötən illər ərzində görülən işlərin mahiyyətini başa düşməkdə açar rolunu oynaya biləcək anlayış yalnız təşəbbüs və təşəbbüskarlıq sözlərindən ibarətdir. Aparılan irimiqyaslı quruculuq tədbirləri və burada hökm sürən işgüzarlıq ovqatı da həmişə təşəbbüskarlığa söykənib. Onun əsasında da iş görməmək üçün iqtisadi blokada şəraitini bəhanə gətirmək psixologiyası aradan qaldırılıb. Ulu öndər muxtar respublikada bu qədər quruculuq siyasətinin reallaşmasını yüksək qiymətləndirərək deyirdi: "Əgər Naxçıvanda belə ağır vəziyyətdə məktəb binası tikilə bilirsə, – buraya daş gətirmək mümkün deyil, kərpic zavodu, mişar daşı və başqa şeylər yoxdur – əgər universitet binaları tikilirsə, tərbiyə müəssisələri istifadəyə verilirsə bəs bunlar başqa yerlərdə niyə tikilmir? Deməli, bu, təşəbbüsdən və təşəbbüskarlıqdan asılıdır".

Ulu öndərin bu fikrində nə qədər haqlı olduğunu isbat etmək üçün 1994-cü ilin bir az əvvəlinə və gerisinə səyahət edərək olanları xatırlatmaq yerinə düşər: 1988-ci ildən başlayaraq milli zəmində münaqişələrin əsası qoyuldu. Naxçıvan özünün ağır günlərini yaşamağa başladı. 1990-93-cü illər Naxçıvan tarixinin ən gərgin və ən çətin dövrləri idi. Naxçıvan Muxtar Respublikasının mövcudluğu və nicatı üçün həmin illərdə möhtərəm Heydər Əliyevin burada yaşaması və siyasi fəaliyyət göstərməsi bu yurdu bir çox bəlalardan, o cümlədən erməni işğalından qorudu. Qondarma Qarabağ münaqişəsinin ətrafında yayılan dalğanın zərbə qüvvəsinə məruz qalan, sərhədyanı kəndləri erməni yaraqlıları tərəfindən güllləbaran edilən bu məmləkətin dincliyi əlindən alınmışdı. Naxçıvan ulu öndərin təbirincə desək, "taleyin ümidinə buraxılan tənha bir adanı xatırladırdı". Görkəmli dövlət xadiminin naxçıvanlıların tələbi ilə həmin vaxt muxtar respublika Ali Məclisinin Sədri vəzifəsini öz öhdəsinə götürməsi nəticəsində Naxçıvan XX əsrin sonlarında onu gözləyən bəlalardan xilas oldu. Ən əsası isə onun muxtariyyət statusu qorunub saxlanıldı.

Blokada şəraitində yaşayan Naxçıvanın düşmən qarşısında duruş gətirməsi ilə yanaşı, həm də iqtisadi problemlərin həllində ciddi tədbirlər görülməli, yeni firavan həyat quruculuğuna başlanmalı idi. Buna görə də Naxçıvanda həyata keçirilən tədbirlər təkcə siyasi müstəvidə yox, yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatının tələblərinə uyğunlaşan iqtisadi model əsasında reallaşdırılmalı idi. Təbii ki, muxtar respublikanın Ermənistan ərazisindən keçən nəqliyyat-kommunikasiya vasitələri, dəmir yolu, avtomobil yolları, təbii qaz və rabitə xətləri kəsiləndən, region tam iqtisadi blokadaya alınandan sonra bölgədə iqtisadi və siyasi böhran daha da dərinləşmişdi.

### *Təhsil və inkişaf*

Belə bir dövrdə Heydər Əliyev kimi müdrik siyasətçinin çıraq işığında imzaladığı qərarlar nəticəsində Naxçıvan muxtariyyət illərinin ən çətin dövründən bərpa dövrünə qədəm qoydu. Zülmətdən işıqlı və nurlu gələcəyə doğru addımlar atıldı. Muxtar respublikamızda həyata keçirilən quruculuq, abadlıq siyasətinin əsas sahəsini məktəblərin və məktəbdənkənar tərbiyə müəssisələrinin tikintisi tuturdu. Ulu öndərin fəaliyyəti ilə əsası qoyulan bu ideyanın muxtar respublikamızda sonrakı illərdə də məqsədyönlü şəkildə, uzaqgörənliklə həyata keçirilməsi dağılmış iqtisadiyyatımızın bərpasına yol açmaqla yanaşı, insanların həyat şəraitinin yaxşılaşdırılması və iqtisadi problemlərin həlli üçün zəruri addımların atılmasına da imkan verdi. Fəaliyyət proqramı kimi ulu öndərin müəllifi olduğu inkişaf konsepsiyası mərhələ-mərhələ reallığa çevrilirdi. İnsanlarda sabaha olan inamın gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verməyə başladı.

Ən əvvəl ictimai-siyasi sabitliyin bərpa olunması sayəsində əhalidə bir arxayınlıq yarandı. Hər kəsin qarşısına öz vəzifəsini yüksək səviyyədə yerinə yetirmək tələbi qoyuldu. İctimai borc insanlara aşılandı. Ailələrdə məişət şəraitinin yaxşılaşdırılması məqsədilə müvəqqəti xarakterli bəzi tədbirlər də görüldü. Tədricən əmək intizamı bərpa olundu. Bir sözlə, hər kəs öz işini görməyə başladı və bunun üçün bütün cəmiyyət səfərbərliyə alındı.

*Ardı 3-cü səhifədə*

Və hər kəs də öz borcunu, vəzifəsini dərk etməyə başladı. Bu, təlim-tərbiyə prosesində də ciddi dəyişikliyə səbəb oldu. Orta məktəblərdə maksimum dərəcədə şərait yaradılmasına ciddi fikir verilirdi ki, şagirdlərin dərsə davamiyyəti və təlimi nəzarətdə saxlanılsın.

Muxtar respublikamızın şəhər, qəsəbə, rayon və kəndlərində eyni sürətlə görülən işlər getdikcə öz bəhrəsini verməyə başladı. Müqayisə üçün bildirmək kifayətdir ki, 1997-98-ci tədris ilində ali məktəblərə qəbul imtahanlarında məzunlar 100-200 intervalında bal toplayaraq tələbə adını qazanırdılarsa, 2013-2014-cü tədris ilində muxtar respublikamızın məzunları daha çox 600-700 intervalında bal toplayaraq Prezident təqaüdünə layiq görülmüşlər. Bunun səbəbi isə Heydər Əliyev ideyalarının ardıcıl şəkildə muxtar respublikamızda reallaşdırılması və gələcəyimiz olan gənclərin yaxşı oxuması, təhsil almasına ən yüksək səviyyədə şəraitin yaradılması oldu. Hətta ən ucqar dağlıq və sərhədyanı rayon olan Şahbuzda təhsilin inkişafına göstərilən qayğının sevindirici bəhrəsi kimi, demək olar ki, son bir neçə ildə rayonumuzun məzunları topladıqları yüksək balla respublika səviyyəsində ad-san qazandılar. Onlardan bir neçəsi Prezident təqaüdçüsü oldu.

Qeyd etmək lazımdır ki, bu gün dünyanın ən inkişaf etmiş dövlətlərində şagirdlər, yeniyetmə və gənclər üçün yaradılan şərait muxtar respublikamızda da var. Təkcə onu demək kifayətdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” uşaqlara göstərilən dövlət qayğısının bariz nümunəsidir. Həmin dövlət proqramına əsasən, ümumtəhsil müəssisələrinə gedə bilməyən məhdud fiziki imkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi yaradılmışdır. Orta məktəblərdə də elektron tədrisin tətbiqi də şagirdlərimizin dünya təhsil sisteminə inteqrasiyası baxımından mühüm əhəmiyyət kəsb edir. Bu gün muxtar respublikanın məktəblərinin əksəriyyətində elektron təhsil üçün ən yüksək səviyyədə texniki imkanlar yaradılıb. Muxtar respublikamızın bütün rayonlarında olduğu kimi, hazırda Şahbuz rayonunun 14 ümumtəhsil məktəbində də Ali Məclis Sədrinin qayğısı ilə şagirdlərin elektron təhsilə qoşula bilməsi üçün texniki imkanlar var.

Bundan başqa, məktəblərdə pilləli təhsil sistemi vasitəsilə uşaqların orta təhsillə yanaşı, sənət, peşə, ixtisas seçimi üçün də lazımi şərait yaradılıb. Bununla bağlı muxtar respublika Ali Məclisinin Sədri Vasif Talıbov öz fikirlərini açıqlayaraq gənclərə dəyərli tövsiyələr verərək demişdir: “Müstəqil Azərbaycanın gələcəyinin etibarlı və möhkəm olması üçün təhsil inkişaf etdirilməli, təkmilləşdirilməlidir. Bu tədbirləri həyata keçirmək üçün, ilk növbədə, müasir təhsil infrastrukturu yaradılmalıdır. Məktəblər müasir tədrisin tələblərinə uyğun avadanlıqlarla təmin olunur. Müəllim-şagird münasibətləri tələbkarlıq və çalışqanlıq prinsipləri üzərində qurulmalıdır ki, istəyimizə nail olaq... Bu gün ölkəmizdə təhsilə göstərilən qayğı, bu sahədə həyata keçirilən islahatlar nümunə gücündədir. Görülən bu işlər bir tərəfdən gənclərin hərtərəfli təhsil almasına xidmət edirsə, digər tərəfdən onların xarici ölkələrdə təhsillərini davam etdirməsi, dünya təhsil sisteminə inteqrasiya baxımından da mühüm əhəmiyyət daşıyır. Ona görə də məktəblərdə şagirdlərə informasiya texnologiyalarının əsasları dərindən öyrədilməli, xarici dillərin tədrisi diqqət mərkəzində saxlanılmalıdır”.

Pedaqoqların fikrincə, tərbiyə edən müəyyən məqsəddən çıxış edir. Böyük pedaqoq A.S.Makarenko isə dövlətin və millətin gələcəyi olan gənclərin düzgün tərbiyə edilməsinin vacib bir məsələ olduğunu xatırladaraq demişdir: “Ata-ana həmişə valideyn olduğunu yadda saxlamalı və bilməlidir ki, onun tərbiyəsi altında olan uşaq gələcək vətəndaş, gələcək xadim və gələcək mübarizdir. Siz pis uşaq tərbiyə etsəniz bunun bəlasını təkcə özünüz yox, bir xalq və bir dövlət də çəkəcək”. Unutmamalıyıq ki, bu gün hər bir valideynin və hər bir müəllimin yaxşı yaşayışı, əmək fəaliyyəti üçün muxtar respublikamızın muxtariyyət tarixinin son 20 ilində bir vaxtlar xəyal belə etmədiyimiz şərait yaradılıbsa, bu şəraitdən istifadə edib yüksək intellekt səviyyəli, dünyagörüşlü, elmli, bilikli gənclərin cəmiyyətə verilməsinə nail olmalıyıq. Bu, bizim həm də vətəndaşlıq və insanlıq borcumuzdur.

Xalqımıza məxsus gözəl bir milli xüsusiyyətin olduğunu da yada salmaq istəyirəm: bizə edilən yaxşılığın əvəzini çıxmaq üçün bütün imkanlarımızdan istifadə etməyə çalışırıq. Deməli, dövlət qayğısının da əvəzini yaxşı işimizlə qaytara bilərik.

**Şəhla NƏBİYEVA**
*“Oğuz səsi” qəzetinin redaktoru*
*“Xalq” qəzeti,*
*8 yanvar 2015-ci il*

## Təmiz su – sağlam həyatın formulu



***Su həyatda insanlar üçün ən vacib nemətlərdəndir. Ana təbiəti susuz təsəvvür edə bilmədiyimiz kimi, insan həyatını da sudan ayrı düşünmək olmaz. Təbabət aləmində suyun insan orqanizmi üçün böyük faydalarından bəhs olunur. Sağlam bir həyat yaşamaq üçün bütün həkimlərin tövsiyəsi çoxlu su içməkdir. Qan təzyiqinin aşağı olması, əsəb pozuntusu, başağrısı və digər bu kimi narahatlığı su vasitəsi ilə müxtəlif şəkildə aradan qaldırmaq olar. Bundan əlavə, halsızlıq kimi xəstəliklərə, əsəblərin sakitləşməsinə su şırıltısı böyük müalicəvi təsir göstərir. Məhz bu xüsusiyyətlərinə görə “Su həyatdır” fikrinin əbəs yerə deyilmədiyinin bir daha şahidi oluruq.***

Planetimizin böyük hissəsi su ilə örtülü olsa da, bu suyun yalnız 3 faizi təmiz və içməlidir. Təbiətdə bu qədər böyük həcmə malik olan su ehtiyatından çox az bir hissəsinin içmək üçün yararlı olması indi bir çox dünya ölkələrində təmiz suya olan ehtiyacın təmin edilməsində mühüm problemlər yaradır. Elə ölkələr var ki, kifayət qədər su mənbələrinə malik olsalar da, bu suyun təmizlənməsinə böyük vəsaitlər xərclənir. Qeyd etmək lazımdır ki, qlobal istiləşmə nəticəsində yağıntıların az olması da su ehtiyatlarının getdikcə azalmasına səbəb olur. Müasir dövrdə su ehtiyatlarından düzgün istifadə etmək, eyni zamanda əhalinin içməli suya olan tələbatını ödəmək bütün ölkələrin qarşısında həllivacib məsələyə çevrilib. Məhz belə bir vəziyyətdə muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlər öz əhəmiyyətini bir daha ortaya qoyur.

Hələ 2008-ci ildən başlayaraq Azərbaycan Hökuməti ilə Asiya İnkişaf Bankı arasında bağlanmış kredit sazişlərinə uyğun olaraq, Naxçıvan şəhərində “Şəhər Su Təchizatı və Kanalizasiya Layihəsi” çərçivəsində tikinti işlərinə başlanılıb. Layihələrə nəzarət Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi tərəfindən həyata keçirilir. Layihənin əsas məqsədi Naxçıvan şəhər əhalisini Ümumdünya Səhiyyə Təşkilatının standartlarına cavab verən təmiz su ilə davamlı olaraq təmin etməkdən ibarətdir. Layihəyə əsasən, Naxçıvançay yatağında müxtəlifdiametrli polietilen borularla dərinliyi 6 metr olan kaptajın (suqəbuledici qurğunun) tikintisi başa çatdırılıb. Kaptajın minimum su sərfi 300 litr /saniyə, maksimum su sərfi 700 litr/saniyə və orta illik su sərfi 460 litr/saniyə təşkil edir. Kaptajdan su anbarlarına qədər diametri 820 millimetr olan şüşəlifli boru ilə 6500 metr uzunluğunda özüaxınlı magistral boru xətti çəkilib. Layihə çərçivəsində hər birinin tutumu 10000 kubmetr olan iki ədəd və tutumu 5000 kubmetr olan bir ədəd su anbarı tikilib. Su anbarlarından paylayıcı şəbəkəyə qədər diametri 720 millimetr olan şüşəlifli boru ilə hər birinin uzunluğu 3750 metr olan özüaxınlı magistral qoşa boru xəttinin tikintisi aparılıb. Magistral xəttin tikintisində istifadə olunan şüşəlifli borular ekoloji cəhətdən təmiz və insan sağlamlığına heç bir zərər verməyən materialdan hazırlanıb.

Naxçıvan şəhərinin içməli su sisteminin yenidən qurulması tədbirləri çərçivəsində inşa olunan və 2014-cü il aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı içməli su ilə təmin edilməsində böyük rol oynayır. Bu hidroobyekt 90 minə yaxın sakinin yaşadığı Naxçıvan şəhərini fasiləsiz olaraq təmiz su ilə təmin edəcək. Kompleksdə suyun təmizlənməsi üçün ən müasir qurğu və avadanlıqlardan istifadə olunur. Belə ki, burada tətbiq olunan yeni nanosüzgəcli qurğu ənənəvi qum süzgəclərindən fərqli olaraq, sudakı bütün zərərli mikrobları tutaraq saxlayır. Bununla da, su təbii mineral tərkibi saxlanılmaqla təmizlənir. Nanosüzgəcdən keçən su içməyə tam yararlı olur və emal zamanı onun xlordan istifadə etməklə zərərsizləşdirilməsinə ehtiyac qalmır. Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, ümumilikdə, 4,13 hektar ərazini əhatə edir. 2473 kvadratmetr sahəyə malik sutəmizləyici qurğu isə üçqat təmiz-



ləmə işini həyata keçirir. Suyun sərfinə, təzyiqinə, elektrik keçiriciliyinə və bulanıqlığına idarəetmə mərkəzində quraşdırılmış kompüterlə nəzarət olunur və iş prosesi avtomatik idarə edilir. İlkin mərhələdə dezinfeksiya etmək üçün suya xüsusi qurğu vasitəsilə havadan ozon alınaraq vurulur. Mexaniki filtrdən daxil olan su 100 mikrona qədər təmizlənir və avtomatik əks-yuma aparılır. Bundan sonra su ikimərhələli filtrdən keçirilir, sonra Hollandiya istehsalı olan nanofiltrasiya sistemli membranlar vasitəsi ilə suyun tərkibində olan hissəciklər 0,001 mikrona qədər təmizlənir. Təmizlənmiş suya xörək duzundan alınmış natrium-hipoxlorid qatılaraq su anbarlarına vurulur. Bunun üçün binada natrium-hipoxlorid qurğusu yerləşir. Qurğu duz çənindən, məhlulu yumşaltma sistemindən, elektrolizəetmə sistemindən və hazır natrium-hipoxloridin yığılması üçün 3 tonluq çəndən ibarətdir. Məhsuldarlığı saniyədə 472 litr olan sutəmizləyici qurğu əhalini keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etməklə yanaşı, həm də ev təsərrüfatlarında elektrik enerjisinə qənaət olunmasına imkan verir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsindən aldığımız məlumata görə, “Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı” layihəsi çərçivəsində indiyədək Naxçıvan şəhərində 224,36 kilometr uzunluğunda müxtəlifdiametrli borularla daxili su şəbəkəsi çəkilişi, 20 min 200-ə yaxın ev birləşməsi aparılıb. Eyni zamanda adıçəkilən layihəyə uyğun olaraq, 217 kilometrdən çox kanalizasiya xətti çəkilib. Təkcə yola saldığımız 2014-cü ildə Naxçıvan şəhərində 15,24 kilometr uzunluğunda kanalizasiya, 6 kilometr uzunluğunda su xətləri çəkilib, 1440 ədəd ev birləşməsi aparılaraq sayğaclar quraşdırılıb. Hazırda bu sahədə işlər yekunlaşmaq üzrədir, sakinlərlə müvafiq müqavilələrin bağlanması işi davam etdirilir. Komitədən onu da bildirdilər ki, ekologiyanın qorunması, eyni zamanda çirkab sularının yenidən təmizlənərək kənd təsərrüfatında istifadəsi üçün mühüm işlər görülür. Belə ki, Naxçıvan şəhərinin cənub hissəsində ötən ildən tikintisinə başlanılmış membrantipli çirkab sutəmizləyici qurğunun inşası tamamlandıqdan sonra daha bir yeniliyə imza atılacaq. Müasir texnoloji qurğular vasitəsilə təmizlənəcək sudan ətraf ərazilərin əkin sahələrini suvarmaq üçün istifadə olunacaq.

*Bəli, Naxçıvan şəhərinin içməli su ilə təminatında həyata keçirilən bu tədbirlər muxtar respublikamızın digər şəhər və rayonlarında da davam etdirilir. Bütün görülən işlərə kompleks yanaşma əhalinin içməli suya olan tələbatını yüksək səviyyədə ödəməyə nail olmaq bərabər, həm də insanların sağlamlığına göstərilən qayğı kimi dəyərləndirilir. Necə deyərlər, təmiz su sağlam həyat, sağlam həyat isə sağlam gələcək deməkdir.*

**Səbuhi HƏSƏNOV**

***Səhiyyə sistemində tibbi xidmətin əhatə dairəsinin genişləndirilməsi, əhalinin hər bir təbəqəsinin keyfiyyətli tibbi xidmətlə əhatə olunması dekabr ayında da diqqət mərkəzində saxlanılmış, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilmişdir. Dekabr ayının əvvəlində Şahbuz rayon Nursu kənd həkim ambulatoriyasının və Babək rayon Naxışnərgiz kənd feldşer-mama məntəqəsinin açılışı olmuşdur.***

## Əhali keyfiyyətli tibbi xidmətlə əhatə olunub

Azərbaycan Respublikası M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının 22 nəfərdən ibarət ayrı-ayrı ixtisaslar üzrə həkim briqadası tərəfindən Ordubad Rayon Mərkəzi Xəstəxanasında 2 min 238 nəfər tibbi müayinədən keçirilmiş, 58 nəfər əməliyyat olunmuşdur.

Naxçıvan Beynəlxalq Hava Limanına distant termometr kamera alınaraq quraşdırılmasına başlanmış, Naxçıvan Muxtar Respublika Xəstəxanası üçün müasir – 4D rejimli digital Dopler-USM aparatı alınaraq quraşdırılmış və istifadəyə verilmişdir.

Bir nəfər həkim 3 aylıq kurs keçməsi üçün Türkiyə Respublikasının Ərzurum Atatürk Universitetinə göndərilmişdir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, “Pediatriyanın aktual problemləri: anadangəlmə inkişaf qüsurları” mövzusunda elmi-praktik konfrans keçirilmişdir.

Təhsil müəssisələrində şagirdlərin kütləvi profilaktik müayinəsi başa çatmış, 43 min 589 uşaq müayinədən keçmiş, 4 min 73 uşaqda xəstəlik aşkar olunaraq müvafiq tədbirlər görülmüşdür.

Ay ərzində uşaqların icbari dispanserizasiyası davam etdirilmiş, 79 min 237 uşaq müayinəyə cəlb olunmuş, xəstəlik aşkar edilən uşaqlar dispanser qeydiyyata götürülmüşdür. Müayinə olunanların 25 min 212 nəfərinin elektron bazada registri yaradılmışdır. Dekabr ayında orta tibb işçilərinin sertifikasiyası olmuş, imtahanda 116 nəfər iştirak etmiş, 98 nəfərin nəticəsi uğurlu olmuşdur. Ümumilikdə, orta tibb işçilərinin mart ayından başlanılmış sertifikasiyasında 471 nəfər iştirak etmiş, 333 nəfər zəruri həddi keçmişdir.

Azərbaycan Milli Oftalmologiya Mərkəzinin oftalmoloqu Məhərrəm Həsənov tərəfindən Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasında 18 nəfərdə müayinə, 7 nəfərdə əməliyyat aparılmışdır.

Dekabr ayında Naxçıvan Tibb Kollecində Naxçıvan Muxtar Respublikasının və Naxçıvan səhiyyəsinin 90 illiyinə həsr edilmiş “Veteran məzunlarla görüş” keçirilmiş, fotostend və kitab sərgisi təşkil olunmuşdur.

Səhiyyə Nazirliyinin ötən ilin son kollegiyasında “Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən əhaliyə göstərilən səhiyyə xidmətinin vəziyyəti”, “Naxçıvan Dövlət Universiteti rezidentlərinin fəaliyyəti və Naxçıvan Tibb Kolleci tələbələrinin təcrübə dərslərinin vəziyyətinin yoxlanılması”, “Muxtariyyət ili”ndə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tədbirlər planının icrası”, “Naxçıvan Muxtar Respublikası səhiyyə müəssisələrinin 2014-cü il yekun hesabatlarının qəbul qaydaları və qrafiki”, “Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Kollegiyasının 2015-ci ilin birinci yarımilinə aid iş planının təsdiq olunması” haqqında məsələlər müzakirə olunmuş, “Muxtariyyət ili” münasibətilə səhiyyə işçilərinin bir qrupu səmərəli fəaliyyətlərinə görə nazirliyin fəxri fərmanı ilə təltif edilmişdir.

Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə dövlət proqramının icrası istiqamətində görülən işlərin davamı olaraq, dekabr ayı ərzində muxtar respublika üzrə 37 nəfər Bakı şəhər Şaqan qəsəbəsində yerləşən Əlillərin Müalicə Pansionatına, 42 nəfər Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına,16 nəfər isə müxtəlif xəstəxanalara müalicəyə göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## “Azərbaycan Respublikasının milli atlası”nın təqdimat mərasimi keçirilib



***Yanvarın 9-da AMEA Naxçıvan Bölməsində “Azərbaycan Respublikasının milli atlası”nın təqdimat mərasimi keçirilib. Mərasimi bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq milli atlas haqqında məlumat verib. “Azərbaycan Respublikasının milli atlası”nı indiyədək çap edilən ən mükəmməl mənbələrdən biri kimi qiymətləndirən akademik atlasın Azərbaycanı dünyada tanıtmaq baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.***

Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2011-ci il tarixli Sərəncamına əsasən hazırlanmış atlas tədqiqatçılar üçün də əhəmiyyətli nəşrdir.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov, Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, dosent Ələkbər Qasımov çıxış edərək milli atlasın məziyyətlərindən bəhs ediblər. Çıxışlarda bildirilib ki, “Azərbaycan Respublikasının milli atlası” ölkəmizlə bağlı ən mükəmməl kartoqrafik nəşrdir. Kartoqrafik təsvir Azərbaycan dilində, xəritələrin izahlı mətni isə Azərbaycan, rus, ingilis dilləri olmaqla, 3 dildə verilib. Atlasda Azərbaycanın inzibati ərazi bölgüsü, tarixi, təbiəti, heyvanlar aləmi, iqtisadiyyatı, mədəniyyəti və turizmi haqqında ətraflı məlumatlar əks olunub. On bölmədən ibarət olan atlasda 800-dən çox xəritə verilib.

Sonda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bu cür sanballı nəşrin hazırlanmasına göstərdiyi qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə elmi ictimaiyyət adından minnətdarlığını bildirib.

**Nərgiz İSMAYILOVA**

***Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında şair-publisist Taleh Həmidin “Yəhya bəy Dilqəm” adlı ikihissəli lirik psixoloji dramı əsasında hazırlanmış tamaşa teatrsevərlərə təqdim edilib. Əsər müəllifin səhnəyə qoyulan ilk pyesidir.***

## “Yəhya bəy Dilqəm” tamaşası Naxçıvan səhnəsində

Dilqəm adı, “Dilqəmi” saz havası çoxlarına məlum olsa da, əksəriyyət Yəhya bəy Dilqəm adlı aşığın həyat və yaradıcılığı haqqında geniş məlumata malik deyil. Bu baxımdan tamaşa maraq doğururdu.





Pərdə açılarkən tamaşaçını ilk cəlb edən rəssam işi oldu. Dumanlı dağların, yaşıl təpələrin ətəyində Yəhya bəy Dilqəm və onun sevgilisi Telli xanım görünüb keçir. Aşağıda – dağın ətəyində Yəhya bəyin atası Böyükağa bəy ömür-gün yoldaşı Nisəbəyim xanım və qızı Qumru ilə dünyanın gəliş-gedişindən söhbət edirlər. Səhnənin görünməsi ilə həmahəng səslənən vətənpərvər ruhlu qəhrəmanlıq havası olan “Misri” aşıq havası sanki tamaşadakı hadisələrin zaman və məkan mühiti ilə bərabər, mövzusundan da xəbər verir. Böyükağa bəyin (Xalq artisti Həsən Ağasoy) ailə üzvləri ilə söhbətindən məlum olur ki, Azərbaycanın çətin günləridir. Ruslar Azərbaycanı işğal etdikdən sonra Şəmkir mahalında və buraya yaxın yerlərdə Rusiyadan köçürülən malakanları və duxobor təriqətinin nümayəndələrini, ermeniləri və digər başqa millətləri məskunlaşdırmaqla münaqişə yaratmaq istəyirlər. Bunun üçün hətta rus çarı fərman da imzalayıb.

Nisəbəyim xanım (aktrisa Nazlı Hüseynquliyeva) və Qumru (aktrisa Zəminə Baxşəliyeva) gündəlik qayğılarla yaşayan Azərbaycan qadınlarıdır. Onları elin oğlu Yəhya bəyin taleyi daha çox düşündürür.

Tamaşada Azərbaycan Respublikasının Əməkdar artisti Xəlil Hüseynovun yaratdığı mühacir Mirzə Əmir obrazı daha çox el ağsaqqalını xatırladır. Səhnə əsərindəki Telli xanımın atası Nəsib bəy (Azərbaycan Respublikasının Əməkdar artisti Yusif Allahverdiyev), anası Cəvahir xanım (aktrisa Zülfiyyə Zeynalova) surətləri dövrün koloritini səhnəyə gətirən obrazlardır. Onların qızı Telli xanım (aktrisa Nurbəniz Niftəliyeva) Yəhya bəylə ailə qurduqdan sonra tamaşaçı hadisələrin nikbin sonluqla bitəcəyini düşünür. Gənc ailənin övladsızlıq dərdi azmış kimi, bu dərdə daha biri – xəyanət barmağı uzanır. Telli xanımın əmisi oğlu Bağırbəy (aktyor Səyyad Məmmədov) bu məhəbbətin nakam sonluqla bitməsinə səbəb olur. Tamaşada Bağırbəy, Musa (aktyor Bünyat Səttarlı), Gülgəz (aktrisa Şölə Novruzbəyli) obrazlarını teatrın gənc aktyorları ifa edirlər.

Tamaşada rus zabitlərini Azərbaycan Respublikasının Əməkdar artistləri Əbülfəz İmanov və Bəhruz Haxverdiyev canlandırırlar.

Tamaşada ictimai-siyasi xətdən fərqli olaraq, lirik xətt daha qabarıq görünür. Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşıyev Yəhya bəy Dilqəmin şeirlərini deyəndə də, məhəbbət səhnələrində də təbii və canlı görünür. Aktyorun təqdimatında el sənətkarının nakam, uğursuz məhəbbəti ilə yanaşı, zəmanədən şikayət motivli şeirləri də səslənir.

Tamaşanın son səhnəsində – Dilqəmin, onun ardınca atası Böyükağa bəyin ölümü məqamında aşıq havası “Dilqəmi”nin səslənməsi el sənətkarının vaxtsız vəfatından doğan kədəri və Vətənin bu halından yaranan qəm-qüssəni ifadə edir, tamaşaçıya Vətən tariximizin unudulmaz səhifələrini xatırladır.

Ümumilikdə, yaradıcılığının çox az hissəsi günümüzə gəlib çatmış Yəhya bəy Dilqəmi tanıtmaq baxımından maraq doğuran tamaşanın quruluşçu rejissoru, Xalq artisti Kamran Quliyevdir. Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əbülfəz Axundovun dövrün koloritini, etnoqrafik xüsusiyyətlərini göstərən rəssam tərtibatı və Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovun musiqi tərtibatı uğurludur.

Tamaşadan sonra səhnəyə çıxan əsər müəllifini və yaradıcı kollektivi teatrsevərlər alqışlarla qarşılayıblar.

**Əli RZAYEV**

## Yağ yurduma, bəyaz qarım...





Tanrı təbiəti yaradanda, fəsilləri insanlara bəxş edəndə səxavətini əsirgəməyib, hər dönəmə bir gözəllik, təravət qatıb. İlin müxtəlif zamanlarına özünəməxsus rənglər, çalarlar verib. Bu bölgüdə yazın qismətinə yaşıl, yayın qismətinə apaçıq, əngin, buludsuz səmaların rəngi olan göy, payızın payına sarı-qırmızı, qışın qismətinə isə paklığın, təmizliyin rəmzi olan ağ düşüb. İnsan ömrünün müxtəlif mərhələlərini də elə bu fəsillərə bənzədənlər, məncə, yanılmırlar. Yaşıl dirilişin, mavi gəncliyin, sarı-qırmızı insanın kamillik dövrünün, ağ bu dünyaya yolçuluğun, bu dünyaya ağ gəlib ağ dönmənin rəngidir. Hər bir qış da bərabərində yeni bir dirilişə, yeni bir həyata zəmin yaradır. Təbiət bu dirilişi, yenilənməni qarla təcəssüm etdirir. Deyirlər, heç bir qar dənəciyi bir-birinə bənzəmir. Məncə, bu həqiqətin özündə insan taleyilə minbir bənzərlik, oxşarlıq var. İnsan da dünyaya pak gəlir, özünü hansısa məqsədlər üçün əridir və başqa bir diriliş üçün ağ örtüklə yola çıxır...

...Qış axşamını isti, işıqlı, rahat evlərində qarşılayan insanları yuxuya verən ana təbiət səssizcə öz hədiyyəsini, həm də doğma yurdumun həsrətlə gözlədiyi qiymətli hədiyyəsini bəxş edir. Qarın gözəlliyi, möhtəşəmliyi də ondadır. Sakitcə gəlir, sakitcə gedir. Doğma elimizobamız, dağımız, çölümüz-düzümüz, şəhərlər, qəsəbələr və kəndlər ağ örpəyə bürünür. Səhər açılanda isə dərsə tələsən uşaqları, işə gedən böyükləri qapının astanasında bəyaz qar qarşılayır. Öz yumşaq, məlahətli səsiylə, qəlboxşayan xışıltısıyla yenə “mən gəlmişəm, əzizlərim, sizə sevinc, bolluq-bərəkət gətirmişəm”, – deyir. “Mən torpağı minbir zəhmətlə əkib-becərən insanların, pak, mələk qədər təmiz olan uşaqların, yurduna-torpağına bağlı olan bu xalqın övladlarının dostuyam. Gəlmişəm ki, sizi sevindirim. Ancaq məni görüb hər gün eyvanınıza qonub şən civiltiləri ilə səs-səsə verən quşları da unutmayasanız ha. Bir tikə çörəyi əlinizdə ovub pəncərənizin önünə töksəniz, mən də rahat olaram. Yoxsa, torpaq üzərində onlar üçün verilənləri gizlətdiyimə görə özümü günahkar hesab edərəm və haqqımı da sizə halal etmərəm”.

*Yurduma qar yağıb,*
*Elə nur düşüb.*
*Yurduma qar yağıb*
*Baxışlarda yaz.*
*Bu işıq yurduma*
*son illər düşüb –*
*Tarix unudulmaz,*
*Əməl danılmaz.*





Yurduma qar yağır... Artıq yurdumun insanlarını mühasirənin ilk illərindəki kimi yağan qar qorxutmur, əksinə, sevindirir, fərəhləndirir. Ona görə sevindirir ki, təbiətin istənilən hədiyyəsi, istənilən şıltaqlığına qarşı Naxçıvan hazırdır. Dövlətimizin öz insanları üçün yaratdığı şərait insanları hər bir çətinlikdən qurtarıb, onlarda dövlətimizə güvən, gələcəyə inam hissi yaradıb. İndi yağan qar evlərə yeni qayğılar, çətinliklər, məhrumiyyətlər yox, bolluq-bərəkət gətirir. Qar yağırsa, demək, axar sular kəsilməyəcək, çeşmələrimiz, bulaqlarımız çağlayacaq, daşlardan, qayalardan ilbəil təmizlənən, əkin sahələrinə çevrilən torpaqlarımız qızılı taxıl zəmilərinə, gözoxşayan üzüm bağlarına çevriləcək. Qara torpaq onu əkib-becərənlər, önündə min dəfə baş əyənlər qarşısında üzüqara qalmayacaq, çəkilən zəhmətin qarşılığını birə-on qaytara biləcək. Və o zaman insanlar soyuq qarın qor istisini ürəklərində hiss edə biləcək, keçmişin qaranlıq günlərinin acı xatirələrinin qara səhifələrini qar bəyazına çevirə biləcəklər.

**Səbuhi HÜSEYNOV**

### *İtmişdir*

Babək rayonunun Nehrəm kənd sakini İbrahimov Səməd İbrahim oğlunun adına olan JN-260A inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Xətai məhəlləsi 8/48A ünvanında yaşayan Tağıyeva Arzu Neymət qızının adına 26.08.2013-cü il tarixdə verilmiş AA-008032 inventar nömrəli torpağın plan ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 21